# Mömin kişi və mömin qadının, günahlardan tam təmizlənmiş halda Allahla qarşılaşana qədər özündə, övladlarında və malında bəla baş verməyə davam edər

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Mömin kişi və mömin qadının, günahlardan tam təmizlənmiş halda Allahla qarşılaşana qədər özündə, övladlarında və malında bəla baş verməyə davam edər".

[Həsən] [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, bəla və imtahan mömin kişi və mömin qadına, özlərinin sağlamlığında və bədənində, övladlarının xəstəliyində, ölümündə, valideyinlərinin üzünə ağ olmaqda və başqa şeylərində, mallarında isə kasıbçılığın olması, ticarətin yox olması, oğurluq, həyatın çətinliyi və ruzinin azalması şəklində baş verməyə davam edər ki, Allah bu bəlalarla onu bütün günah və xətalardan təmizləyər, hətta O, Allahla qarşılaşdığı vaxt artıq işlədiyi bütün günah və asiliklərdən təmizlənmiş olar.

https://sunnah.global/hadeeth/az/show/3159